

# Dövlətə və xalqa xidmət nümunəsi

***Prezident İlham Əliyevin həyata keçirdiyi kadr islahatları dövlət idarəetməsinin səmərəliliyinin artırılması, şəffaflaşdırılması, cəmiyyəti narahat edən mənfi halların aradan qaldırılması, peşəkar kadr bazasının formalaşdırılması və layiqli namizədlərin mühüm vəzifələrə irəli çəkilməsi kimi məsələlərin həlli məqsədini daşıyır.***

Dövlətimizin başçısı Bakı şəhərinin Nizami, Nərimanov rayonlarına və Kürdəmir rayonuna yeni təyin olunan icra hakimiyyəti başçıları ilə videoformatda qəbulu zamanı bu barədə ətraflı bəhs edib. Ölkə rəhbəri çıxışında vəzifəyə yeni təyin olunan icra hakimiyyəti başçılarına böyük etimad göstərildiyini və onların bu etimadı doğruldacaqlarına əminliyini diqqətə çatdırıb.

Prezident İlham Əliyev adları çəkilən rayonlarda, ilk növbədə, vəziyyətin dərindən təhlil edilməsinin, mövcud problemlərə xüsusi diqqət göstərilməsinin zəruriliyini xatırladıb.

Dövlətimizin başçısı daha sonra deyib: “Son illər ərzində ölkəmizin hər bir yerində genişmiqyaslı quruculuq-abadlıq işləri, geniş islahatlar aparılır. Bildirməliyəm ki, 2004-cü ildə qəbul edilmiş birinci Regionların Sosial-İqtisadi İnkişafı Dövlət Proqramının və sonrakı dövrdə buna oxşar proqramların qəbul edilməsi bölgələrdə vəziyyəti böyük dərəcədə müsbətə doğru dəyişdirmişdir. Qarşıda duran əsas vəzifələr icra edildi, infrastrukturla bağlı olan məsələlər, sosial obyektlərin təmiri, tikintisi, ictimai yerlərin yaradılması, iş yerlərinin yaradılması, işsizliyin aradan qaldırılması, yəni, bütün bu göstəricilər, eyni zamanda, aparıcı beynəlxalq maliyyə qurumları tərəfindən qeyd edilir və Azərbaycan ümumi inkişaf indeksinə görə inkişafda olan ölkələr arasında qabaqcıl yerlərdədir, birinci üçlükdədir. Amma bu, o demək deyil ki, biz əldə olunan nailiyyətlərlə kifayətlənək. Ölkə qarşısında hələ də problemlər var və bu problemlər həll olunmalıdır”.

Ölkə rəhbəri çıxışında Bakının görülən işlər nəticəsində dünyanın ən gözəl şəhərlərindən birinə çevrildiyinə, bura gələn qonaqların və yerli sakinlərin bunu məmnunluqla vurğuladıqlarına baxmayaraq, hələ də paytaxtda müəyyən problemlərin həllini tapmadığını, bütün yerlərin heç də lazımi meyarlara cavab vermədiyini bildirib və xüsusilə inkişafa yönələn addımların Bakının hər bir guşəsində atılmasının zəruriliyini qeyd edib. Dövlətimizin başçısı nitqində insanlarda narahatlıq doğuran çətinliklərin aradan qaldırılmasının təkcə paytaxtda deyil, həm də bölgələrdə daim ön planda saxlanılmasını vurğulayıb.

Prezident İlham Əliyev çıxışında icra hakimiyyəti başçılarına daim insanlarla təmasda olmalarını, sakinlərin problemlərini onların öz dilindən eşitmələrini, hər kəsin üzləşdiyi çətinliklərə həssaslıqla yanaşmalarını da tövsiyə edib. “Yəni, bütün məmurlar qarşısında mənim tərəfimdən qoyulan vəzifələr bundan ibarətdir. Çünki hər bir dövlət məmuru Prezident başda olmaq şərti ilə xalqın xidmətçisidir. Mən bunu dəfələrlə öz çıxışlarımda demişəm və icra başçılarını vəzifəyə təyin edərkən demişəm. Ancaq əfsuslar olsun ki, bəzi hallarda mənim təyin etdiyim vəzifəli şəxslər öz vəzifə borcunu yerinə yetirmək əvəzinə qanunsuz işlərlə məşğul idi, korrupsiya ilə, rüşvətxorluqla məşğul idi. Kasıb insanların malına göz dikmişdilər, dövlət tərəfindən ictimai işlərə cəlb edilən insanların maaşını mənimsəmişdilər. Bu vicdansızlıq və əxlaqsızlıq nəticəsiz qalmadı. Bildiyiniz kimi, bir çox icra başçıları cinayət məsuliyyətinə cəlb olunub, artıq bir çoxu məhkum edilib və bəzilərinin cinayət işlərinin istintaqı davam edir”, – deyə ölkə rəhbəri xatırladıb.

**(ardı 2-ci səhifədə)**



# Dövlətə və xalqa xidmət nümunəsi

(əvvəli 1-ci səhifədə)

Azərbaycan Prezidenti diqqətə çatdırdığı bu sözlərin icra hakimiyyəti başçıları ilə bərabər, həm də bütün məmurlara aid olduğunu, qanun qarşısında hamının məsuliyyət daşıdığını, əks təqdirdə isə vəzifə tutan hər bir şəxsin bundan sonra da cəzalandırılacağını bildirib.

Dövlətimizin başçısı çıxışında kadr islahatlarının işlərin uğurla getməsini şərtləndirdiyini qeyd edərək, bildirib ki, kadrların seçilməsində, ilk növbədə, onların iş qabiliyyəti, dövlətçiliyə, dövlətə sədaqəti, vətənpərvərliyi nəzərə alınmalıdır. Tanışlıq, qohumluq əlaqələri və hansısa başqa prinsiplər isə tamamilə aradan qaldırılmalıdır. Seçim zamanı qarşıya qoyulan vəzifələri şərəflə yerinə yetirməyə qabil kadrlara üstünlük verilməlidir: "Eyni zamanda, qeyd etdiyim kimi, vətənpərvər insanlar, dövlətə, xalqa bağlı olan insanlar, əlbəttə ki, ön plana çıxmalıdır və kadr təyinatları aparılanda bu, nəzərə alınmalıdır".

Ölkə rəhbəri nitqində Vətən müharibəsində qəhrəmanlıq göstərən övladlarımızın məşğulluq məsələlərinin diqqətdə saxlanılmasını, Məşğulluq Marafonu keçirilən zaman sahibkarların döyüşlərdə şücaət göstərən hərbçilərimizə həssas münasibət bəsləmələrini, vətənpərvərlik və dövlətçilik prinsiplərinə əsaslanılaraq, onların işlə təmin olunmalarını tövsiyə edib. Eyni zamanda, özəl sektora, qeyri-neft sahəsinin inkişafına düşməndən təmizlənən torpaqların bərpasında da mühüm önəm verilməsini xatırladıb. Dövlətimizin başçısı bu məsələlərdə icra hakimiyyəti başçılarının da üzərlərinə mühüm vəzifələr düşdüyünü, canını fəda etməyə hazır olan hər bir gəncimizin işlə təmin edilməsinin, həmçinin onların peşə qabiliyyətlərinin təkmilləşdirilməsi zəruriliyinə prioritet istiqamətlər kimi yanaşılmasını diqqətə çatdırıb. "Yəni, biz onları gələcək fəaliyyətə hazırlamalıyıq. Bir daha qeyd etmək istəyirəm ki, kadr məsələlərinin düzgün təşkilində əsas prinsiplər, bax, dediyim iş qabiliyyəti, vətənpərvərlik və dövlətçilik əsasları olmalıdır", – deyə Prezident İlham Əliyev bildirib.

Azərbaycan Prezidentinin yeni təyin edilən icra hakimiyyəti başçılarına tövsiyəsində özəl sektorun inkişafı məsələsinə də toxunulub. Bildirilib ki, son vaxtlar bu sahədə böyük uğurlar əldə edilib. Sahibkarlığın inkişafına prezidentlik fəaliyyətinin ilk günlərindən xüsusi önəm verdiyini xatırladan ölkə rəhbəri hazırda həyata keçirilən tədbirlər nəticəsində ümumi daxili məhsulun əksər hissəsinin məhz özəl sektorda, qeyri-neft sahəsində istehsal olunduğunu qeyd edib. Dövlətimizin başçısı sözlərinə indiki şəraitdə, xüsusilə postmüharibə dövründə özəl sektorun üzərinə daha böyük vəzifələr düşdüyünü də əlavə edib.

Yeri gəlmişkən, hazırda Qarabağ və Şərqi Zəngəzurda sürətlə davam edən bərpa-quruculuq layihələri sırasında qeyri-neft sənayesinin inkişafı da proritet istiqamət kimi diqqətdə saxlanılır. Elə bunun nəticəsidir ki, Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə Ağdamda və Cəbrayıl rayonunun Soltanlı kəndində texnoparklar yaradılır.

Texnoparkların fəaliyyəti işğaldan azad olunan ərazilərin potensialından daha yüksək səviyyədə istifadə etmək imkanı yaradacaq. Bununla yanaşı, doğma yerlərə dönəcək soydaşlarımızın məşğulluğu da təmin ediləcək. Beləliklə, bu texnoparklar bölgənin həm iqtisadi inkişafını təmin edəcək, həm də sosial məsələlərin həllinə müsbət təsir göstərəcək.

Tikilməkdə olan Ağdam Sənaye Parkına sahibkarlar tərəfindən böyük maraq göstərilir, artıq 5 sahibkara sənaye parkının rezidenti statusu verilib. İqtisadiyyat Nazirliyinin İqtisadi Zonaların İnkişafı Agentliyində bununla bağlı keçirilən tədbirdə sahibkarlara Sənaye Parkının rezidentinin qeydiyyat şəhadətnaməsi təqdim olunub.

Göründüyü kimi, istər düşməndən təmizlənən ərazilərimizin bərpasında, istərsə də Azərbaycanın digər bölgələrində sənayenin qeyri-neft sektorunun inkişafında özəl bölmə mühüm rol oynayır. Şübhəsiz ki, dövlətimizin başçısı da bu məsələdə sahibkarlara, iş adamlarına xüsusi qayğı və diqqət göstərir: "Mən Prezident kimi həmişə sahibkarlara dəstək olmuşam, həm mənəvi cəhətdən, həm də yaradılmış infrastruktur, güzəştli şərtlərlə verilmiş kreditlər və digər addımlar atılmışdır. Yerlərdə isə onlara elə şərait yaradılmalıdır ki, onlar həvəslə investisiya qoysunlar, iş yerləri yaratsınlar. Bir sözlə, onlara maneçilik törətmək yox, əksinə, kömək göstərmək lazımdır. Özəl sektorun inkişafı ümumi iqtisadi siyasətimizin istiqamətlərini nəzərə almalıdır".

Respublikada sənayenin qeyri-neft sektorunun inkişafına yetirilən diqqətin sayəsində son illər ərzində önəmli göstəricilər əldə edilib. Azərbaycan Prezidentinin imzaladığı müvafiq sərəncamlar, dövlət proqramları, islahatların getdikcə dərinləşməsi, hökumətin reallaşdırdığı uğurlu siyasət nəticəsində əldə edilən maliyyə resursları iqtisadi cəhətdən müstəqilliyimizi gerçəkləşdirib, kredit ehtiyacını aradan qaldırıb, xarici dövlət borcunun ildən-ilə azalmasını şərtləndirib. Məhz bütün bu amillər Qarabağ və Şərqi Zəngəzurun Azərbaycanın öz gücü ilə dirçəldilməsini reallaşdırıb.

Prezident İlham Əliyev çıxışının sonunda Kürdəmir, Nizami və Nərimanov rayonlarının icra hakimiyyəti başçılarına da öz fəaliyyətlərində sadalanan bu məsələləri diqqət mərkəzində saxlamalarını, yerlərdə əhali ilə təmaslarına xüsusi önəm vermələrini, yaşayış sahələrinin problemlərinin həllinə həssas münasibət bəsləmələrini tövsiyə edib. Ölkə rəhbəri daha sonra deyib: "Yerlərdə həlli mümkün olmayan problemlərin, – elə problemlər təbii ki, var, – həlli üçün siz mərkəzi icra orqanlarına müraciət etməlisiniz, həlli mümkün olan problemləri isə özünüz həll etməlisiniz ki, insanlar sizdən razı olsun. İnsanlar sizdən razı olsalar, mən də sizin işinizdən razı olacağam".

Xatırladaq ki, Prezident İlham Əliyev bundan əvvəl də yeni təyin edilən icra hakimiyyəti başçılarının peşəkar olmalarının mühüm önəm daşımasını xatırlatmaqla bərabər, onlara işlədikləri rayonlarda, şəhərlərdə nüfuz qazanmalarının, vətənpərvərlik, dürüstlük, şəffaflıq, vətəndaşlara xidmət, dövlətçilik prinsiplərini əsas tutmalarının, habelə investorları cəlb etməyin, rayonların sosial-iqtisadi inkişafını gerçəkləşdirməyin zəruriliyini xatırladıb. Eyni zamanda, onların yerlərdə xoşagəlməz hallara, korrupsiya və rüşvətxorluğa qarşı çox ciddi mübarizə aparmalarının vacibliyini diqqətə çatdırıb.

Ölkə rəhbəri indiyədək bir sıra çıxışlarında respublikamızda cəmiyyətin kadr islahatlarını yüksək qiymətləndirdiyini vurğulayaraq, bu islahatların hər zaman davamlı olacağını, təyin edilən bütün yeni kadrlar qarşısında konkret vəzifələr qoyulduğunu və məmurlara o vəzifələrin icrasının zəruriliyini bildirib. Eyni zamanda, dövlət məmurlarının vəzifəyə gəlir mənbəyi kimi baxmamalarını, xalqa xidmət etmələrini, başlıca missiyalarının, vəzifələrinin isə məhz bundan ibarət olduğunu tövsiyə edib.

Bütün bunlar onu deməyə əsas verir ki, respublikamızda dövlət idarəetmə yenilənmələri kadr islahatlarının sistemliliyini və dayanıqlılığını təmin edir, ölkənin davamlı inkişafını şərtləndirir. Ən əsası isə islahatların sistemli şəkildə gerçəkləşdirilməsi bu prosesə inamı daha da artırır. Bu isə Azərbaycanın ictimai-siyasi kataklizmlərlə deyil, təkamül yolu ilə inkişaf etdiyini göstərir.

*Vaqif BAYRAMOV,*
*"Xalq qəzeti"*